DÜNYA XƏBƏRLƏRİ

Kipr iki rusiyalı diplomatı casusluq şübhəsi ilə ölkədən çıxarıb

Noyabr 23, 2026



Kipr və Aİ bayraqları

Kipr casusluqda şübhəli bilinən iki rusiyalı diplomatı ölkədən çıxarıb. Xəbəri ANT1 telekanalı yayıb.

Kiprin iki rəsmisi də "Politico" nəşrinə bu məlumatı təsdiqləyib. Onların sözlərinə görə, Kiprin xüsusi xidmət orqanları ölkənin və Avropa İttifaqının təhlükəsizliyi ilə bağlı məxfi məlumatları ələ keçirməyə çalışan şəbəkəni ifşa edib. Şəbəkənin Avropa sanksiyaları çərçivəsində Rusiyaya ixracı qadağan olunmuş texnologiyalara çıxış əldə etməyə cəhd göstərdiyi bildirilir.

Diplomatlar Kipri ötən həftə tərk ediblər. Onlar Rusiya kəşfiyyatına işləməkdə şübhəli bilinirlər. İddiaya görə, diplomatlar məxfi məlumatlara çıxışı olan Kipr vətəndaşları ilə əlaqə yaradıblar.

ANT1 xəbər verir ki, casusluq fəaliyyəti Kiprin Avropa İttifaqı Şurasına sədrlik etdiyi altı ay ərzində də həyata keçirilib. Kiprin sədrliyi yanvarın 1-dən iyunun 30-dək davam edib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur